# COP29-a ev sahibliyi:

## qlobal iqlim dəyişmələri ilə mübarizədə tarixi uğur hekayəsi

**Bakı COP29 zirvəsinə ev sahibliyi edərək iqlim dəyişmələri ilə mübarizədə dünyaya örnək olan bir mövqedədir. Bu zirvə həm ölkəmizin ekoloji təşəbbüslərini nümayiş etdirir, həm də beynəlxalq nüfuzunu gücləndirərək qlobal liderlik mövqeyini təsdiqləyir. COP29-a ev sahibliyi etməsi ölkəmizin iqlim dəyişmələri ilə mübarizə sahəsində yeni bir uğur hekayəsinin əsasını qoyur.**

2015-ci ildə imzalanan Paris Sazişindən bəri karbon bazarlarını tənzimləyən əsas şərtlər üzrə razılaşmalar realizə edilməyib. Bu sazişin 6-cı maddəsi karbon bazarlarının formalaşdırılması və karbon ticarəti mexanizmlərinin qurulması ilə bağlı əsas prinsipial məsələləri əhatə edir. Lakin bu maddə üzərində razılıq illərdir davam edən mübahisələrə səbəb olub. Paris Sazişinin əsas oyunçuları olan ABŞ və Avropa İttifaqı uzun illərdir 6-cı maddə üzrə uzlaşma üçün çalışır. Bununla belə, mübahisəli məqamları həll etmək asan olmayıb və bu, sazişin tam tətbiqini çətinləşdirən əsas maneələrdən biri olaraq qalıb. Lakin tarixdə ilk olaraq Azərbaycanın COP29-a ev sahibliyi etdiyi ilk gündə bu tarixi zirvə Paris Sazişinin 6.4-cü alt maddəsi üzrə razılığa nail olmaqla qlobal iqlim danışıqlarında mühüm bir dönüş nöqtəsinə çevrildi.

**(davamı 13-cü səhifədə)**

# COP29-a ev sahibliyi:

## qlobal iqlim dəyişmələri ilə mübarizədə tarixi uğur hekayəsi

**(əvvəli 1-ci səhifədə)**

Əldə olunan nailiyyət beynəlxalq iqlim hərəkatına yeni nəfəs gətirir və digər maddələr üzrə də razılığın əldə olunmasına ümidləri artırır. Bu razılıq karbon bazarlarının daha şəffaf və ədalətli işləməsini təmin edəcək mexanizmlərin qurulmasında vacib addımdır.

Azərbaycanın belə bir mötəbər tədbirə ev sahibliyi etməsi təkcə texniki razılaşmalar deyil, həm də iqlim dəyişmələri mövzusunda beynəlxalq həmrəyliyin gücləndirilməsi baxımından da mühüm rol oynayır. Bakı zirvəsi həm ABŞ, həm də Avropa İttifaqı liderlərinin razılaşdığı bir məkan olaraq iqlim dəyişmələri ilə mübarizədə yeni qlobal çərçivələrin formalaşmasına öz möhürünü vurur. Azərbaycanın qlobal məsuliyyətinə, sülh və davamlılıq dəyərlərinə nə qədər sadiq olduğu bir daha öz təsdiqini tapır.

COP29-un gündəliyində yer alan digər mühüm məsələ isə iqlim dəyişmələri ilə mübarizəyə ayrılacaq maliyyə hədəflərinin yenidən müəyyənləşdirilməsidir. Dünya ölkələri və beynəlxalq təşkilatlar iqlim dəyişmələri ilə mübarizə üçün kifayət qədər maliyyə vəsaiti ayrılmasının vacibliyini vurğulayırlar. Bu istiqamətdə xüsusilə beynəlxalq maliyyə korporasiyaları və bank strukturlarının açıqlamaları diqqət çəkir. Dünya Bankı bu kontekstdə iqlim dəyişmələri ilə mübarizəyə ayırdığı maliyyə töhfəsini 170 milyard dollara çatdıracağını bildirib. Sözügedən məbləğ qlobal iqlim tədbirlərində və infrastruktur layihələrində mühüm irəliləyişlərə yol açacaq. Bununla yanaşı, Yaşıl İqlim Fondunun icraçı direktoru Mafalda Duarte noyabrın 13-də Bakıda COP29 çərçivəsində keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxışı zamanı 2030-cu ilədək daha 50 milyard ABŞ dolları həcmində maliyyənin ayrılmasına mümkün olduğunu dilə gətirib. Onun sözlərinə görə, ötən il fond ayırdığı vəsaitləri 2,3 faiz artırıb.

Məhz COP29-un davam etdiyi ərəfədə bu kimi vital qərarların qəbul olunması heç də təsadüfi deyil. Rəsmi Bakı tarixi tədbir çərçivəsində beynəlxalq maliyyə korporasiyalarının rəhbərlərini, dövlət və hökumət başçılarını bir araya gətirir. Azərbaycanın qlobal səhnədəki təsir gücü beynəlxalq maliyyə qurumlarının iqlim dəyişmələri ilə mübarizəyə daha çox resurs ayırmaqla bağlı fikirlərini gücləndirir və qlobal maliyyə sistemində davamlı inkişafa töhfə verir. Yeni maliyyə hədəfləri iqlim dəyişmələri ilə mübarizə üçün zəruri olan infrastrukturların qurulmasını və innovativ texnologiyaların tətbiqini dəstəkləyir. Bu isə dünyanın enerji və ekoloji təhlükəsizliyini təmin etmək yolunda əsas mərhələdir.

Digər tərəfdən, Bakı dünyaya bir daha sübut etdi ki, Azərbaycan təkcə Cənubi Qafqazın mərkəzi deyil, həm də qlobal tədbirlərin uğurla həyata keçirildiyi bir ölkədir. COP29 çərçivəsində 196 ölkədən 72 min iştirakçının qeydiyyatdan keçməsi, onlarla dövlət başçısının və rəsmilərin tədbirə qatılması, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. Britaniya, İtaliya, İspaniya, Belçika, Danimarka, Finlandiya, Polşa, Belarus, Yunanıstan, Çexiya, Xorvatiya, Serbiya və digər ölkələrin rəhbərləri, Avropa İttifaqı Şurasının Prezidenti kimi nüfuzlu şəxslər Bakıda bir araya gələrək Azərbaycanın qlobal ekoloji tədbirlərdəki rolunu alqışlayırlar. Yüksək səviyyəli qonaqların iştirakı, ölkəmizin beynəlxalq ictimaiyyətdə nüfuzunu və ekoloji mövzuda dəstək verəcək sadiq bir tərəfdaş olduğunu nümayiş etdirir. Qeyd etmək yerinə düşər ki, dünən ölkə başçımızın iştirakı ilə bir sıra görüşlər keçirildi və mühüm sənədlərə imza atıldı. Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşü olduqca əlamətdardır. Bununla yanaşı, Prezident İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü keçirildi. "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması bir daha qlobal sferada atılan önəmli addımları təsbit edir.

Dünyanın dörd bir yanından COP29-a üz tutan rəsmilərin təklif və təşəbbüsləri bununla bitmir. Belə ki, Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ölkəsinin "Yaşıl enerji dəhlizi" layihəsinin həyata keçirilməsində maraqlı olduğunu bildirməsi yeni enerji tranzitində önəmli rol oynayacaq. Təsadüfi deyil ki, məhz COP29 çərçivəsində Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə "SOCAR və "Asarel Energy" arasında Birgə İnkişaf Sazişi" imzalandı. Braziliyanın ətraf mühit və iqlim dəyişikliyi naziri Marina Silvanın COP29 çərçivəsində keçirilən "Təbiət və iqlim üzrə xüsusi tədbirlər" sessiyasında COP29-da 1,5°C hədəfinə nail olmaq öhdəliyini daşıyan Milli Töhfə Bəyannaməsinin təqdim ediləcəyini bildirməsi, vahid məqsədə xidmət edir - daha güclü və dayanıqlı dünya üçün hamımız həmrəy olmalıyıq. Əldə edilən razılaşmalar, hökumət rəsmilərinin müsbət fikirləri Azərbaycanın qonaqpərvərliyinin yüksək qiymətləndirilməsində öz əksini tapdı. Bütün bunlar Azərbaycanı qlobal iqlim hərəkatının əsas mərkəzlərindən birinə çevirir. Bu, ölkəmizin dünya səhnəsində ekoloji səmimiyyətə, təbii sərvətlərin qorunmasına və qlobal dəyərlərə bağlılığını göstərir.




Bütün bunlarla yanaşı, Azərbaycanın uğurlarını həzm edə bilməyənlər də var. Lakin qərəzli qüvvələr bu gün olduğu kimi, dünən də, sabah da və bundan sonrada xar olacaqdır. Necə ki, həmin qərəzli dairələr ölkəmizi Tanrı vergisi olan təbii sərvətlərinə görə qısqanırlar. Onlar bütün dünyada rəzil olurlar. Məhz Belarus Prezidenti Aleksandr Lukaşenkonun dünyaya daha çox zərər verənlərin məsuliyyəti öz boyunlarından atdığını ifşa etməsi bunun sübutudur. Belarus lideri iqlim dəyişmələri ilə mübarizə üçün qlobal fəaliyyət təkliflərini səsləndirən zaman bildirib ki, bu, sözdə deyil, əməldə olmalıdır. Sözdən hərəkətə keçməyin vaxtıdır. Ödəməli olanlar isə ödəməlidirlər, öz kabinetlərində oturmamalıdırlar... Fransa prezidenti vaxtilə özünü Paris razılaşmasının az qala qəhrəmanı hesab edirdi. Və o, bu gün haradadır?

Azərbaycan COP29-a ev sahibliyi edərək qlobal miqyaslı uğura imza atır. Dünyanın gələcəyi naminə atılan addımlarda lider mövqe sərgiləyən dövlətimizin bu əməyi daim yüksək qiymətləndirilir. Məhz bundan sonra da özünəməxsus yanaşmalarla daim Azərbaycan qlobal gündəliyin önəmli tərkib hissəsi kimi dünyada bir ulduz kimi parlayacaq.

**Nurlan ABDALOV,**
**"Respublika".**